# Biz birlikdə güclüyük!



***Cəbhə xəttinə düşmənlə təmas xətti demişik illərlə. Beynəlxalq səviyyədə qəbul olunan qanun-qaydalara uyaraq gözləmişik. Düz 27 il... Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı kimi çıxış edən BMT Təhlükəsizlik Şurası Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1993-cü ildə – 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul edib.***

Bu qətnamələr münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üzrə siyasi prosesin hüquqi çərçivəsini müəyyən edib. Qətnamələrdə Azərbaycan ərazilərinin işğalı pislənilib, güc tətbiqi vasitəsilə ərazi iddialarının reallaşdırılmasının qəbuledilməzliyi vurğulanıb, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı bir daha təsdiq edilib və işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunub. Nəticə isə işğalçı Ermənistanın yeni ərazi iddiaları və ölkəmizin daha çox hissəsini işğal etmək hədə-qorxuları ilə muşayiət olunur indi.

Bu gün üçün, 27 il keçəndən sonra artıq həmin sədd işğalçı Ermənistan və onun havadarları üçün çoxdan pozulub və bəzi beynəlxalq təşkilatların, humanist, insansevər “cildinə” girən dövlətlərin də, COVID-19-a qədər “maskalanan”, hər yerdə “sülhsevərlik” adı altında güc tətbiq edən bəzi böyük güclərin də “maska”sı üzündən çıxıb artıq. İndi hər şey ap-aydın ortadadır. Ermənistan işğalçıdır, ona dəstək verənlərsə, işğalçılıq siyasətini dəstəkləyirlər, vəssalam! Məncə, ədalətsiz mövqe tutan bəzi beynəlxalq təşkilatların, araqızışdırıcı böyük güclərin leksikonunda olan və bizim də danışığımıza gətirdikləri “qoşunların təmas xətti” ifadəsi elə onların ikili standartlarının təzahürüdür, nəticəsidir.

Ermənistanın “marionet hakimiyyətinin” nümayəndəsi Nikol Paşinyan sayıqlayaraq deyir ki, “Qarabağ Ermənistanındır və nöqtə”... Bu zamansa ermənilərin tarixini bilən, necə deyərlər, onların “dabbaqda gönünə bələd olan” heç bir ölkə dillənmir. Səsiniz çıxmırsa, onda ərazi bütövlüyümüz uğrunda atılan toplarımızın səsinə oyanmalısınız, heç olmazsa. Azərbaycan öz haqq davasını aparır. Həyatını Qarabağ uğrunda savaşa həsr edən bir jurnalist kimi hiddət içindəyəm. Əzizlərimdən şəhidlər vermişəm Qarabağ uğrunda savaşda. Dostlarımı itirmişəm ermənilərin işğalçılıq siyasəti nəticəsində. Görün, indi şəhid verən, torpaqlarını itirən bir millət nə düşünür?!

Ermənistana havadarlıq edənlər, siz soysuzlara, torpağı, vətəni olmayanlara dəstək olur, yatırım edirsiniz. Sizi qınamıram... Çünki onlar sizin işinizə yarayırlar. Soysuz siz dediyinizi edir, sizin göstərişinizlə Azərbaycanın torpağını işğal edir. Bu siyasət keçməz artıq! Azərbaycan qədim-qayım türk torpağıdır. Qarabağ Azərbaycandır!

***Rahib QƏRİB,***
***ehtiyatda olan mayor,***
***hərbi jurnalist,***
***Qarabağ müharibəsi veteranı,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 2 oktyabr.- S.6.